# Şamaxı inkişafın yeni mərhələsinə qədəm qoyur

***Ölkənin iqtisadi xəritəsi barədə olan məlumatlarda qeyd edilir ki, Şamaxı rayonu müstəqillik dövründə də əvvəlki iqtisadi göstəricilərini uğurla davam etdirir. Biz isə əlavə edirik ki, Şamaxı təkcə iqtisadi və sosial baxımdan deyil, eləcə də tarix, mədəniyyət, təhsil və mənəvi dəyərlər baxımından da böyük önəm kəsb edir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Şamaxı səfərlərinin ənənəyə çevrilməsi də məhz həmin önəmin göstəricisidir.***

*Şamaxı rayonunda indi işlər yaxşı gedir. Böyük quruculuq işləri aparılır. Bütün sahələrdə insanların rahatlığı üçün çalışırıq. Şəhidlərimiz də bax, bu gün üçün öz canlarını fəda etmişlər ki, xalqımız rahat yaşasın, sülh, təhlükəsizlik şəraitində yaşasın, öz doğma torpağına qayıtsın və artıq qayıdıbdır... Bütün şəhidlərimizin bu Zəfərdə böyük payı var.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Şamaxı, 1 noyabr 2021-ci il***



...Bu sətirləri “Şamaxıda geniş abadlıq-quruculuq işləri aparılır” cümləsi ilə başlamaq istəyirdim. Çünki, sözün həqiqi mənasında, həmin istiqamətdə çoxsaylı uğurlar var. Amma rayonun ictimai-siyasi həyatındakı yenilik və nailiyyətlər də tikinti- quruculuq işlərindən az deyil. Yaxud, aqrar sektorda həyata keçirilən tədbirlərin bu rayonun keçmiş şöhrətini qaytardığına da sevinməyə bilmirsən. Ulu öndər Heydər Əliyevin respublikamıza birinci dəfə rəhbərlik etdiyi illərdə Şamaxı taxılçılarının, üzümçülərinin, heyvandarlarının qazandığı nailiyyətləri kim unudub ki?







Yəni qabardılmalı mövzular çoxdur. Ona görə də biz bu sətirlərə illərin sınağından çıxmış bir el məsəli ilə başlamaq istəyirik: “Abad kənd yolundan bəlli olar”. Həqiqətən, bu gün Şamaxıda həmin məsəlin təsdiqini hər kənddə, şəhərin hər küçəsində görmək olur. Rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədovla söhbətimizə də bu məsələ ilə başladıq. Həmsöhbətim qeyd etdi ki, dövlət başçısının sərəncamına əsasən, Şamaxı şəhərində yol infrastrukturunun müasir səviyyəyə çatdırılaraq vətəndaşların rahat gediş-gəlişinin təmin olunması istiqamətində genişmiqyaslı təmir-tikinti işləri aparılır. Bu isə ölkənin əsas turizm mərkəzlərindən biri olan şəhər üçün olduqca vacib məsələdir.

Prezidentin adıçəkilən sərəncamına əsasən, Şamaxı şəhərində ümumi uzunluğu 96,5 kilometr, sahəsi 621 min 615 kvadratmetr olan 126 adda prospekt və küçənin təmir işlərinin aparılması nəzərdə tutulur. Artıq bu çərçivədə ümumi uzunluğu 12,3 kilometr olan 20 adda prospekt və küçədə aparılan təmir-tikinti işləri başa çatmaq üzrədir. Bildirildi ki, Bakı – Şamaxı–Yevlax magistral avtomobil yolunun 120-ci kilometrində Bakı şəhəri istiqamətindən Şamaxı şəhərinə və yolun 123-cü kilometrində Ağsu istiqamətindən Şamaxı şəhərinə giriş-çıxış yollarında nəqliyyat vasitələrinin normal və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə eyni səviyyəli yol qovşaqlarının tikintisi artıq başa çatıb.

Rayonun aqrar sektordakı nailiyyətləri barədə söz açarkən isə yada düşən ilk sahə üzümçülük olur. Tahir müəllim qeyd etdi ki, vaxtilə üzümçülük rayonu kimi tanınan bölgədə son illər bu ənənəvi və gəlirli sahənin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Artıq üzüm plantasiyalarının sahəsi 1933 hektara çatdırılıb ki, bunun da 1731 hektarı məhsuldardır. Süfrə və texniki üzüm sortlarını becərməyə üstünlük verən şamaxılı fermerlər 2021-ci ildə də bol məhsul yetişdiriblər. Builki hava şəraiti üzüm istehsalı üçün əlverişli olmasa da, aparılan aqrotexniki qulluğun nəticəsində məhsuldarlıq yaxşıdır. Bağlardan toplanan məhsullar yerindəcə çeşidlənib qablaşdırıldıqdan sonra yerli və xarici bazarlara çıxarılır.



Xatırladaq ki, hazırda ölkəmizdə intensiv metodlara əsaslanan aqrar sektorun yaradılmasına yönələn siyasət, həyata keçirilən dövlət dəstəyi tədbirləri uğurlu nəticə verir. Bu, kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olur. Üzümçülüklə bağlı həyata keçirilən tədbirlər də bunun əyani təsdiqidir. Onu da əlavə edək ki, üzümçülük sahəsi əhalinin məşğulluğunun təmin edilməsinə də öz müsbət təsirini göstərir.

Qeyd edək ki, təkcə bu il Şamaxıda 500-ə yaxın yeni iş yeri açılıb. Həmin iş yerlərinin əksəriyyəti fiziki şəxslərdədir. Eləcə də, yüzlərlə vətəndaş mövsümi işlərdə çalışıb. Regionların sosial-iqtisadi inkişafına göstərilən dövlət dəstəyi, iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlar üçün yaradılan əlverişli şərait Şamaxı rayonunda da yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artmasına imkan verir.

Rayonun ictimai-siyasi həyatındakı uğurlar barədə söz açarkən isə dövlət başçımızın və birinci xanımın noyabrın 1-də Şamaxıya etdikləri səfərin bəzi detallarını yada salmaq kifayətdir. Məsələn, İlham Əliyev və Mehriban xanım Əliyeva Şamaxı şəhərindəki Gənclər Parkında görülmüş işlərlə tanış olanda məlumat verildi ki, bu park “Regional İnkişaf” İctimai Birliyinin təşəbbüsü ilə yaradılıb. Qeyd edək ki, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi tərəfindən gənclərin idmana olan marağının artırılması, asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təbliği məqsədilə regionlarda müxtəlif layihələr həyata keçirilir. Bu layihələr çərçivəsində Şamaxı şəhərindəki park da yenidən qurulub, yaşıllıq və gəzinti sahələri yaradılıb, sakinlərin və qonaqların istirahəti üçün infrastruktur qurulub.

Dövlət başçımız istənilən rayona yeni rəhbər təyin edəndə, həmin şəxslərə tapşırır ki, gedin, xalqa xidmət edin: “Başda mən olmaqla, bütün vəzifə sahibləri xalqın xidmətçiləridir!” Bu gün Şamaxıda həmin tövsiyənin icrasının şahidi oluruq. Belə ki, vətəndaşların dövlət qurumları ilə daha rahat təmasda olmaları, birbaşa müraciətləri üçün Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə belə bir portal yaradılıb və keçən ilin sentyabrından vətəndaşların ixtiyarındadır. Vətəndaşlar istənilən dövlət quruma birbaşa müraciət ünvanlayırlar və ilkin müraciət zamanı onların fərdi elektron kabineti formalaşır ki, öz müraciətlərinin statusu barədə istənilən məlumatı ala bilsinlər. Eyni zamanda, bu portalın üstünlüklərindən biri də odur ki, yerli və mərkəzi icra hakimiyyəti orqanları istədikləri vaxt müvafiq quruma ünvanlanan müraciəti izləyə bilirlər. Eləcə də, müasir texnologiyanın verdiyi imkanlar sayəsində əməkhaqqı, pensiya kredit kartları, hətta həmin kartların bağlandığı mobil telefon, mobil saat, smart saat və digər qurğular vasitəsilə nəqliyyatda ödəniş edilə bilər. Yəni Şamaxı, sözün həqiqi mənasında, iti sürətlə müasirləşir.

Xatırlayıram, 2016-cı ilin mayında Şamaxıdan hazırladığım qəzet materialında aprel şəhidi Samir Kaçayev haqqında da söz açmış və demişdik ki, Vətən torpağı belə igidləriin hünəri nəticəsində düşmən tapdağından azad ediləcək. Qüdrətli ordumuz yağı əsarətində olan torpaqlarımızı işğaldan azad etdi. İstedadlı heykəltəraş isə incəsənət adamlarının yüksək qiymətləndirdiyi şəhid Samir Şamaxıya məzmunlu əsərləri ilə “qayıtdı”. Əsgər Samir Kaçayev göstərdiyi qəhrəmanlığa görə ölümündən sonra Prezident İlham Əliyevin sərəncamı ilə “İgidliyə görə” medalı ilə təltif edildi.

İstənilən görüşdə və ya tədbirdə şəhid ailələrinə böyük ehtiramla yanaşan Prezident və birinci xanım Şamaxıda da həmin ənənəni yüksək səviyyədə davam etdirdilər. Onların Samir Kaçayevin valideynləri ilə görüşməsi qeyd olunmalı bir fakt idisə, rayon rəhbərliyinin Mehriban xanımın dəstəyi ilə bu istedadlı soydaşımızın xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addım da xüsusilə qeyd edilməli idi. Parkda şəhid heykəltəraşın “Küləklə sovrulanlar” adlı çoxfiqurlu heykəltəraşlıq əsəri qoyulmuşdur.

Dövlət başçımızın həmin əsərin önündə, tək bir şəhid atasına xitabən dediyi fikirlər isə bütün şəhid ailələrinə verilən təsəlli kimi dəyərli idi: “Təsəlli o ola bilər ki, qanı yerdə qalmayıb. O, Aprel döyüşləri zamanı həlak olmuşdur. Biz düşməndən onun və bütün digər şəhidlərimizin qanını aldıq. Torpaqlarımızı geri qaytardıq, böyük zəfər əldə etdik və Aprel döyüşlərinin bu zəfərdə də öz rolu var, öz payı var. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bu da onun xatirəsinə özü tərəfindən yaradılmış bir əbədi abidə olacaq”.

Gözəl ifadə idi: “ Xatirəsinə özü tərəfindən yaradılmış bir əbədi abidə”.

Bunu eşidəndə yadıma düşdü ki, şamaxılılar son 18 ildə rayonda çox abidələri əbədiləşdiriblər. Rayonun yeni rəhbərliyi də həmin ənənənin uğurla davam etdirilməsi üçün lazım olan bütün addımları atır. Elə biz Şamaxıdan ayrılanda yoldakı dumanın və dağların üstündəki buludların dağılması da daha aydın sabahlardan xəbər verirdi.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***